

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 42-43 (7279-7280) ❁ Bazar, 21 iyun 2015-ci il ❁ Qəzet ayda 4 dəfə çıxır ❁ Qiyməti 40 qəpik

# Avropa Oyunlarının həyəcanı davam edir

## Patrik Hikkinin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda Olimpiya hərəkatının inkişafındakı böyük xidmətlərinə görə Avropa Olimpiya Komitələrinin prezidenti Patrik Hikki "Şərəf" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

*Bakı şəhəri, 17 iyun 2015-ci il.*

## Azərbaycan Prezidenti İlham Əliyev Avropa Olimpiya Komitələrinin prezidenti Patrik Hikkiyə "Şərəf" ordeni təqdim edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Avropa Olimpiya Komitələrinin prezidenti Patrik Hikki "Şərəf" ordeni ilə təltif olunub.

Dövlətimizin başçısı iyunun 17-də yüksək mükafatı Patrik Hikkiyə təqdim edib.

Prezident İlham ƏLİYEV dedi:

- Cənab prezident, ilk növbədə Sizi yubileyiniz münasibətilə təbrik etmək istərdim. Çox şadam ki, Siz ad gününüzü Bakıda, əminəm, Sizə çox yaxın olan bir ölkənin paytaxtında qeyd edirsiniz. Fürsətdən istifadə edərək Avropada idmanın, Olimpiya hərəkatının inkişafı naminə həyata keçirdiyiniz işlərə görə Sizə təşəkkürümü bildirmək istərdim.

İyirmi ilə yaxındır Avropa Olimpiya ailəsinin üzvü olaraq mən Sizin qitəmizdə idmanın inkişafına sadiqliyinizə, fəaliyyətinizə və fədakarlığınıza çox yaxşı bələdəm. Mən Avropa Olimpiya Komitəsinin iclaslarında bizim birgə iştirak etdiyimiz vaxtları xatırlayıram. Təəssüf ki, hazırda mən işimlə əlaqədar iclaslarda iştirak edə bilmirəm, lakin Sizin fəaliyyətinizi yaxından izləyirəm. Mən Sizi dünyada Avropa idmanının təbliği ilə bağlı əldə etdiyiniz böyük nailiyyətlər münasibətilə təbrik etmək istəyirəm.



Əlbəttə ki, ilk Avropa Oyunlarının təşkili ilə bağlı Avropa Olimpiya ailəsinin dəstəklədiyi qərar tarixi qərar idi. Biz ilk Oyunları Bakıda keçirməkdən qürur duyuruq. Bu, bizə ölkəmizi təqdim etmək, imkanlarımızı nümayiş etdirmək və möhtəşəm tədbiri təşkil etmək imkanı verir. Biz ictimaiyyətin bu tədbirə böyük maraq göstərdiyini görürük. Əminəm ki, Oyunlar sona çatandan sonra biz minlərlə insanın, xüsusilə uşaqların idmana marağının artmasının, çempion olmağa çalışmasının şahidi olacağıq. Bu, Azərbaycanda idmanın gələcək inkişafında olduqca müsbət rol oynayacaq.

Avropada, Azərbaycanda idmanın və Olimpiya hərəkatının inkişafındakı böyük nailiyyətləri nəzərə alaraq mən Sizin Azərbaycanın ən ali mükafatlarından biri olan "Şərəf" ordeni ilə təltif edilməyinizlə bağlı Sərəncam imzalamışam və onu Sizə təqdim etmək istəyirəm.

Prezident İlham Əliyev "Şərəf" ordenini Patrik Hikkiyə təqdim etdi.

Təqdimat mərasimində Avropa Olimpiya Komitələrinin prezidenti Patrik Hikki çıxış edərək Prezident İlham Əliyevə yüksək mükafata görə təşəkkür etmişdir.

## Güləşçilərimiz bir gündə 3 medal qazandılar

Tarixdə ilk dəfə təşkil olunan Avropa Oyunlarında həyəcan davam edir. Bütün idman növlərində bir-birindən maraqlı idman mübarizələrinin şahidi oluruq. Sözsüz ki, bu günlərdə daha çox diqqət mərkəzində olan idman növü güləşdir. Güləşçilərimiz son 4 gündə qazandıqları medallarla dünya idman ictimaiyyətinin diqqətini özlərinə cəlb edə biliblər.







Yunan-Romada 6 (2 qızıl, 2 gümüş, 2 bürünc), qadın güləşində isə 3 (2 qızıl,1 bürünc) medal əldə edilərək möhtəşəm zəfərə imza atılıb.

Bu, hələ son deyil. Çünki Heydər Əliyev adına İdman Sarayında sərbəst güləşçilərimiz ölkəmizin aktivinə daha 3 medal (2 qızıl, 1 bürünc) yazdırdılar.

İyunun 17-də 57 kq, 65 kq, 74 kq və 97 kq çəki dərəcələrində sərbəst güləşçilər xalça üzərinə çıxıblar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, "Bakı-2015" Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri final qarşılaşmalarını izləyiblər.